| | | |
|---|---|---|
| **Ümumiməlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | VET 465 Epizootologiya – 1, 4 AKTS |
| | **Departament** | Həyat Elmləri departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2023/24-cü tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim** | Məmmədov Rafail Əhməd oğlu |
| | **E-mail:** | rafail.mammadov@khazar.org |
| | **Telefon:** | Ev : 465 58 42, mobil: 070 640 44 00 |
| | **Mühazirə otağı/Cədvəl** | Elşən Mehdiyev küç. (Bakıxanov kampusu) |
| | **Məsləhət saatları** | |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü** | Məcburi | |
| **Əsas (dərsliklər) və əlavə ədəbiyyat** | 1. İ.B. Məmmədov, A.Ə. Əhmədov, N.İ. Məmmədov – "Epizootologiya və quşların infeksion xəstəlikləri", Bakı - 2003.<br>2. R.A. Qədimov, Z.Ə. Ələsgərov, Q.Ə. Dünyamalıyev, İ.B. Məmmədov – " Kənd təsərrüfatı heyvanlarının infeksion xəstəliklərinin diaqnostikası və profilaktikasında istitadə edilən bioloji preparatlar", Gəncə - 2002.<br>3. A. S. Əliyev, Y.Y. Danko, İ.D. Yeşenko, A.V. Kudryavseva. " Epizootologiya mikrobiologiya ilə", dərslik (rus dilində), Lan nəşriyyatı , Sank-Peterburq - 2018. https://e.lanbook.com/book/107943<br>4. A.A. Sidorçuk, N.A. Məsimov, V.L. Krupalkin və b. "Heyvanların infeksion xəstəlikləri" , dərslik. (rus dilində), Moskva – 2016.<br>5. V.V. Makarov- " Epizootoloji müayinə metodu" dərs vəsaiti (rus dilində), Lan nəşriyyatı, Sank-Peterburq - 2009. https://e.lanbook.com/book/249<br>6. Y.B. Nikulşina, A.İ. Kozin, D.A. Vasilyev, E. A. Afonin "Ümumi epizootologiya", dərs vəsaiti (rus dilində), Ulyanovsk – 2007.<br>7. A.A. Sidorçuk, V.L. Krupalkin, N. İ. Popov – "Bayarlıq sanitariyası" dərs vəsaiti rus dilində), Lan nəşriyyatı, Sank-Peterburq - 2011.<br>8. Z.Ə. Ələsgərov "Antropozoonoz xəstəliklər", dərslik, Bakı – 2016.<br>9. Z.Ə. Ələsgərov, E.M. Ağayeva, Q.Ə. Dünyamalıyev "Baytarlıq virusologiyası" , dərslik, Bakı -2009. | |
| **Kursun təsviri** | "Epizootologiya və heyvanların infeksion xəstəlikləri kursu" iki hissədən ibarətdir: Ümumi və xüsusi epizootologiya. Ümumi epizootologiya infeksiya haqqında ümümi nəzəriyyəni, immunitetin epizootoloji aspektlərini, epizootik prosesi,infeksion xəstəliklərin təkamülünü, nomenklaturasını və təsnifatını, infeksion xəstəliklərin qarşısının alınması və aradan qaldırılmasının ümumi prinsiplərini öyrənir.<br>Xüsusi epizootologiya ayrı-ayrı infeksion xəstəliklərin epizootologiyasını, pato-genezini, xəstəliklərin klinik mənzərəsini, dəqiq və spesifik diaqnostikasını, hər bir konkret infeksiyaya qarşı patogenetik (spesifik) terapiyanı, spesifik profilaktika üsul və vasitələrini və hər birinin aradan qaldırılması (ləğvi) üçün tədbirləri öyrənir. | |
| **Kursun məqsədi** | Baytarlıq fakültələrində epizootologiya və heyvanların infeksion xəstəlikləri fənninin tədrisi tələbələrin hazırlanması və yüksək ixtisaslı baytarlıq mütəxəssislərinin formalaşdırılması baxımından aparıcı rol oynayır.<br>Fənnin tədris olunmasının əsas məqsədi tələbələrə heyvanların infeksion xəstəliklərinin baş verməsi, təzahürü və yayılması qanunauyğunluqları, infeksion xəstəliklərin diaqnostikası, onların qarşısının alınması və onlara qarşı mübarizə vasitələri və üsulları, baytarlıq-sanitariya tədbirlərinin təşkili, heyvandarlıqda infeksion xəstəliklər üzrə davamlı sağlamlıq durumunun yaradılması, həmçinin əhalinin insan və heyvanlar üşün ümumi olan yoluxucu xəstəliklərdən (zoonozlar) qorunması haqqında zəruri bilikləri verməkdən ibarətdir.<br>Fənnin tədris edilməsinin vəzifələrinə aşagıdakı məsələlərin tələbələrə öyrədilməsi aiddir:<br>• İnfeksiya və immunitetin epizootoloji aspektləri;<br>• Müxtəlif təbii-coğrafi və sosial-iqtisadi şəraitlərdə epizootik proses və onun hərəkətverici qüvvələri;<br>• Heyvanların infeksion xəstəliklərinin təkamülü, nomenklaturası və təsnifatı;<br>• Epizootoloji müayinənin metod və üsulları; | |

| | |
|---|---|
| | • Müasir heyvandarlıqda epizootiyaya qarşı işin prinsipləri;<br>• Heyvanların infeksion xəstəlikləri zamanı tətbiq edilən terapevtik və müalicə-profilaktiki vasitələr və metodlar;<br>• Baytarlıq sanitariyasının əsasları - dezinfeksiya, dezinseksiya, deratizasiya və onların praktiki şəraitdə tətbiqi;<br>• heyvanların infeksion xəstəliklərinin epizootoloji və iqtisadi baxımdan daha mühüm olan əsas xüsusiyyətləri, onların diaqnostikası və müalicəsi;<br>• heyvanların infeksion xəstəliklərinə qarşı ümumi və spesifik profilaktiki və sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi. |
| **Tədris (öyrənmə) nəticələri** | **Epizootologiya və heyvanların infeksion xəstəliklər kursunun öyrənilməsi nəticəsində tələbə aşağıdakıları bilməlidir:**<br>- infeksion və epizootik proseslərin inkişaf qanunauyğunluqlarını, epizootiya, enzootiya, sporadiya və panzootiyaların dəyişmə və gedişatının mərhələlərini;<br>- heyvanların kəskin və xroniki gedişli infeksiyalarının səbəblərini və inkişaf mexanizmlərini, bu xəstəliklər zamanı makroorqanizmlərdə əmələ gələn tipik patoloji anatomik dəyişiklikləri;<br>- heyvanlar arasında tez-tez rast gəlinən infeksion xəstəliklərin əsas təzahür formalarını, etiologiyasını, patogenezini və xəstəliyin nəticələrini;<br>- heyvanların infeksion xəstəliklərinin etioloji, patogenetik, simptomatik terapiyasının və profilaktikasının (ümumi və xüsusi) prinsiplərini;<br>- baytarlıq sanitariyasının əsaslarını və dezinfeksiya, dezinseksiya, deratizasiya tədbirlərini heyvandarlıq təsərrüfatlarında tətbiqini;<br>- infeksion prosesin müxtəlif inkişaf mərhələlərində yoluxmuş heyvanları aşkar etməyi və infeksion xəstəliklərin əmələ gəlmə səbəblərini müəyyən etməyi,həmçinin infeksion və epizootik proseslərin gedişatını xarakterizə etməyi;<br>- bakterioloji və virusoloji metodlardan istifadə etməklə infeksion xəstəliklərin törədicilərini ayırmağı;<br>- epizootoloji analizin aparılmasını, infeksiya törədicisinin identifikasiyasını və sonra infeksiyanın enzootiyadan panzootiyaya qədər yayılma dərəcəsini müəyyən etməyi.<br><br>**Bu kursu bitirmiş tələbə bacarmalıdır:**<br><br>- infeksion prosesin inkişaf qanunauyğunluqlarını təhlil etməyi, infeksion xəstəliklərin baş verməsi, yayılması və sönməsi üzrə prosesləri idarə etməyi**;**<br>- kompleks epizootoloji müayinə metoddundan istifadə etməklə infeksion xəstəliyə tutulmuş heyvanların aşkar edilməsi üsullarını;<br>- infeksion prosesin inkişafını proqnozlaşdırmağı, diaqnostik testlərin, müalicə və profilaktiki tədbirlərin nəticələrini dəyərləndirməyi;<br>- infeksion və epizootik proseslərin mümkün gedişlərini qiymətləndirməyi;<br>- infeksion xəstəliklər zamanı situasion tapşırıqları həll etməyi, infeksion xəstəliklərin inkişafını düzgün xarakterizə etməyi, laborator diaqnostik testlərin nəticələrinin interpretasiyası, infeksion xəstəliyə tutulmuş heyvan orqanizmdə gedən prosesləri ümumbioloji, ekoloji və tibbi-baytarlıq baxımından düzgün dəyərləndirməyi;<br>- epizootoloji müayinə və epizootoloji eksperiment metodlarını düzgün və kompleks şəkildə tətbiq etməyi;<br>- infeksion xəstəliyin yaranma səbəblərini və patogen faktorun makroorqanizmə yoluxma yollarını düzgün müəyyən etməyi, antigenin makroorqanizmə daxil olması hesabına sintez olunan spesifik antitelin miqdarı üzrə infeksion prosesin gedişini xarakterizə etməyi;<br>- epizootoloji analizi düzgün aparmağı və infeksiya törədicisini dəqiq idendifikasiya etməyi;<br>- heyvandarlıq təsərrüfatlarında dezinfeksiya, dezinseksiya və deratizasiya tədbirlərini vaxtında və səmərəli şəkildə həyata keçirməyi;<br>- epizootiya əleyhinə profilaktiki tədbirlərə və infeksiyanın ləğvinə dair planların hazırlanması üzrə qərarlar verməyi. |

| | | | |
|---|---|---|---|
| **Tədris metodları** | **Mühazirə** | **X** | |
| | **Seminar** | **X** | |
| | **Qrup müzakirəsi** | **X** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Fəallıq** | | **5** |
| | **Davamiyyət** | | **5** |
| | **Tapşırıq və testlər (quiz1,2)** | | **10** |
| | **Prezentasiya** | | **10** |
| | **Final imtahanı** | | **40** |
| | **Yekun** | | **100** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Dərslərə davamlı gəlmək çox vacibdir. Mühazirələr və dərslərdə iştirak sizin bilik və bacarıqlarınızı genişləndirir. Buraxılmış dərslərə görə və yerinə yetirmədiyiniz tapşırıqlar üçün siz məsuliyyət daşıyırsınız.<br>Semestr ərzində fərdi mövzuda **prezentasiyaların** verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15-dəqiqədən artıq olmamalıdır. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>**Sinif qaydaları və ya ümumi qaydalar:**<br>- Hər dəfə sinfə vaxtında gəlmək;<br>- Müəllimdən 5 dəqiqə sonra sinfə gələnlərə qaib yazılır;<br>- Bütün tapşırıqları vaxtında təhvil vermək;<br>- Tapşırıqlarda plagiarizmdən istifadə etmək yolverilmızdir;<br>- Dərs kitablarından mütləq istifadə etmək! Əlavə mənbələr: internet materialları və əlavə kitablardan istifadə qiymətləndirilir;<br>- Qrup yoldaşlarınıza və müzakirələr zamanı onların fikirlərinə hörmətlə yanaşmaq;<br>- Sinifdə mobil telefondan istifadə etmək olmaz;<br>- Müəllimin sinifdə verdiyi tapşırıq və göstərişlər bütün tələbələr tərəfindən yerinə yetiril-məlidir;<br>- Qrup işlərində bütün tələbələrin aktiv iştirakı vacibdir;<br>- Hər bir tələbəyə semestr ərzində könüllü olaraq dərsin müəyyən hissəsində müəllim kimi özünü sınamağa icazə verilir;<br>- Müəllimlə email vasitəsilə, yaxud iş saatlarında ofisdə (1-5-ci günlər səhər saat 9-dan axşam saat 6-ya qədər, 13:00-14:00 nahar vaxtı çıxılmaqla) əlaqə saxlamaq (axşam saat 9-dan sonra və bazar günlərində yazılan emaillara cavab verilmir);<br>- Müəllimə Whatsapp mesajları və SMS-lər yazmamaq.<br>**Kursa verilən tələblər:**<br>1. Dərs kitablarını və əlavə materialları oxumaq;<br>2. Sinifdəki bütün müzakirələrdə, diskussiyalarda və digər intellektual fəaliyyətlərdə aktiv olmaq;<br>3. Tapşırıqları tələb olunan vaxtda və formatda tərtib etmək;<br>4. Xəstəlik və fövqəladə hallardan başqa bütün dərslərdə iştirak etmək.<br>***Bü kurs üçün bir aralıq və bir final imtahanı nəzərdə tutulmuşdur. Bütün imtahan sualları sillabusda yazılan mövzulara əsasən tərtib olunacaqdır.***<br>Tələbələrə keçirilən mövzularla bağlı quiz (test) keçiriləcək və hər biri 5 bal olmaq şərtilə ümumi 10 bal veriləcəkdir.<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxıla bilər.<br>Dərsi pozmaq, dərsdən icazə istəmək, qrup işlərinin hazırlanması xaricində mobil telefonundan istifadə etmək kimi davranışlar arzu olunmazdır.<br>Tələbələrin hazırladıqları təqdimatlarda mənbələrin göstərilməsi vacib şərtdir.<br>Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və | | |

| | |
|---|---|
| | köçürmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) balla qiymətləndirilir.<br>Universitet qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il götürə bilər.<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefondan istifadə qadağandır. |

**Mövzular üzrə saatları bölgüsü və təqvim-tematik plan**

| Həftə | Tarix | Mövzular və tədris sualları | Saat | Əsas (dərsliklər) və əlavə ədəbiyyat |
|---|---|---|---|---|
| I | 22.09.2023 | **Mövzu № 1:Epizootologiyaya giriş.**<br>Epizootologiyanın predmeti. Heyvanların infeksion xəstəliklərinin öyrənilməsinin qısa tarixi. Epizo-otologiyanın başqa elmlərlə əlaqəsi. İnfeksion xəstəliklərin iqtisadi zərəri və epizootiya əleyhinə tədbirlərin iqtisadi effektivliyi. Müasir dövrdə epizootogiyanın vəzifələri. | 2 | Ədəbiyyat - 1,5,6,8 |
| II | 27.09.2023 | **Mövzu № 2:İnfeksiya və infeksion xəstəliklər haqqında nəzəriyyənin əsasları.**<br>İnfeksiya və infeksion xəstəlik haqqinda anlayış. İnfeksiyanın növləri. Patogen mikroorqanizmlərin heyvan opqanizminə daxil olması və heyvan orqanizmində yayılması yolları. İnfeksion xəstəlik-lərin dinamikası və təzahürünün kliniki formaları. | 4 | Ədəbiyyat - 1,3,5,6,8 |
| III | 06.10.2023 | **Mövzu № 3 : Epizootik proses**.<br>Epizootik proses haqqında anlayış. Epizootik zəncir, onun həlqələri, epizootik prosesin hərəkətverici qüvvələri. | 2 | Ədəbiyyat - 1,3,5,6,8 |
| IV | 13.10.2023 | **Mövzu № 4: Epizootik ocaq.**<br>Epizootik ocaq haqqında anlayış. Epizootik ocaqların növləri. Əlverişsiz məntəqə və təhlükəli zona haqqında anlayışlar. | 2 | Ədəbiyyat - 1,3,5,6,8 |
| V | 20.10.2023 | **Mövzu № 5: İnfeksion xəstəliklərin nomenklaturası və təsnifatı.**<br>İnfeksion xəstəliklərin nomenklaturası anlayışı və quruluş prinsipləri, infeksion xəstəliklərin təsnifatı. İnfeksion xəstəliklərin təkamülü. | 4 | Ədəbiyyat - 1,3,5,6,8 |
| VI | 27.10.2023 | **Mövzu № 6: Epizootik monitorinq və epizootik müayinənin əsasları.**<br>Epizotologiyanın tədqiqat (öyrənmə) obyekti. Epizootik monitorinqin kompleks metodu. Epizootik müayinənin kompleks metodu | 2 | Ədəbiyyat - 1,3,5,6,7,8 |
| | | **QUİZ 1** | 1 | |
| VII | 03.11.2023 | **Mövzu №7: İnfeksion xəstəliklərin ümumi və spesifik profilaktikası.**<br>Epizoyiya əleyhinə işin əsas vəzifələri və prinsipləri. Heyvanların infeksion xəstəliklərinin ümumi və spesifik profilaktikasının metodları. Sağlam əlverişli | 2 | Ədəbiyyat - 1,3,4,5,6,8 |

| | | | | |
|---|---|---|---|---|
| | | təsərrüfatların mühafizəsi. | | |
| | | **Aralıq imtahanı** | | |
| VIII | 10.11.2023 | **Mövzu № 8: Sağlamlaşdırıcı tədbirlər və infeksion xəstəliklərin aradan qaldırılması (ləğvi).** İnfeksion xəstəliklərlə mübarizənin əsas istiqamətləri. İnfeksiya törədicisinin mənbəyinə qarşı tədbirlər. Törədicinin həssas makroorqanizmə ötürülməsi mexanizminin aradan qaldırılması üzrə tədbirlər. Epizootik ocaq ərazisində heyvanların infeksiyaya qarşı ümumi və spesifik rezistentliyinin (müqavimətinin) artırılması. Epizootik ocaqda sağlamlaşdırıcı tədbirlər sistemi və infeksion xəstə-liyin aradan qaldırılması (ləğvi). | 4 | Ədəbiyyat - 1,3,5,6,8 |
| IX | 17.11.2023 | **Mövzu № 9: İnfeksion xəstəliklərin terapiyasının əsas prinsipləri.** İnfeksion xəstəliklərin müalicəsinin epizootoloji və iqtisadi baxımdan əsaslandırılması və müalicənin xüsusiyyətləri. Spesifik terapiya. Kimya terapiyası. Qeyri-spesifik terapiya. Simptomatik terapiya. | 2 | Ədəbiyyat - 1,3,5,6,8 |
| X | 24.11.2023 | **Mövzu №10: Baytarlıq sanitariyasının əsasları.** Baytarlıq sanitariyası haqqında əsas bilgilər. Dezinfeksiya. Dezinseksiya. Deratizasiya. | 4 | Ədəbiyyat - 1,3,5,6,8,9 |
| XI | 01.12.2023 | **Mövzu 11: Qarayara**. Tarixi məlumat. Xəstəliyin törədicisi. Törədicinin davamlılığı. Epizootoloji məlumatlar. Patogenez. Xəstəliyin gedişi və kliniki əlamətləri. Patoloji-anatomik dəyişikliklər. Diaqnoz. Təfriqi diaqnoz. Müalicə. İmmunitet. Profilaktika və mübarizə tədbirləri. | 2 | Ədəbiyyat - 1, 2, 5, 6, 10 |
| XII | 08.12.2023 | **Mövzu № 12 : Dabaq** Tarixi məlumat. Xəstəliyin törədicisi. Törədicinin davamlılığı. Epizootoloji məlumatlar. Patogenez. Xəstəliyin gedişi və kliniki əlamətləri. Patoloji-anatomik dəyişikliklər. Diaqnoz. Təfriqi diaqnoz. Müalicə. İmmunitet. Profilaktika və mübarizə tədbirləri. | 4 | Ədəbiyyat - 1,2,5,6,13,11 |
| XIII | 15.12.2023 | **Mövzu №13: Quduzluq.** Tarixi məlumat. Xəstəliyin törədicisi. Törədicinin davamlılığı. Epizootoloji məlumatlar. Patogenez. Xəstəliyin gedişi və kliniki əlamətləri. Patoloji-anatomik dəyişikliklər. Diaqnoz. Təfriqi diaqnoz. İmmunitet. Profilaktika və mübarizə tədbirləri. | 2 | Ədəbiyyat - 1,2,5,6,13,11 |
| XIV | 22.12.2023 | **Mövzu №14: Vərəm**. Tarixi məlumat. Xəstəliyin törədicisi. Törədicinin davamlılığı. Epizootoloji məlumatlar. Patogenez. Xəstəliyin gedişi və kliniki əlamətləri. Patoloji-anatomik dəyişikliklər. Diaqnoz. Təfriqi diaqnoz. Müalicə. İmmunitet. Profilaktika və mübarizə tədbirləri. | 4 | Ədəbiyyat - 1, 2, 5, 6, 10 |

| | | | | |
|---|---|---|---|---|
| XV | 29.12.2023 | **Mövzu №15: Brusellyoz.**<br>Tarixi məlumat. Xəstəliyin törədicisi. Törədicinin davamlılığı. Epizootoloji məlumatlar. Patogenez. Xəstəliyin gedişi və kliniki əlamətləri. Patoloji-anatomik dəyişikliklər. Diaqnoz. Təfriqi diaqnoz. Müalicə. İmmunitet. Profilaktika və mübarizə tədbirləri. | 2 | Ədəbiyyat - 1, 2, 5, 6, 10 |
| | | **QUİZ 2** | 2 | |
| | | **Final imtahanı** | **45** | |

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**
**HƏYAT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİ**

# HƏYAT ELMLƏRİ DEPARTAMENTİ

EPİZOOTOLOGİYA -1

SİLLABUS

Tədris ili və semestri

2023/2024 Payız

**Razılaşdırılmışdır** **Təsdiq edirəm**

**Departament müdiri:**
**b.ü.f.d. C.M. Eldarova**